# Azərbaycanın məhkəmə-hüquq sistemi Vyetnam üçün maraqlıdır



İyulun 3-də Milli Məclisin Sədri Oqtay Əsədov ölkəmizdə səfərdə olan Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Hüquqi İslahatlar üzrə Komissiya sədrinin birinci müavini, Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü xanım Le Thi Thu Banın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Azərbaycan-Vyetnam əlaqələri görüşün əsas müzakirə obyekti olub.

Oqtay Əsədov ölkələrimz arasındakı mövcud əlaqələrdən danışaraq münasibətlərdə dövlət başçılarının, ayrı-ayrı hökumət nümayəndələrinin qarşılıqlı səfərlərinin və görüşlərinin mühüm əhəmiyyətini qeyd edib. Sədr bu səfərin də hüquq-mühafizə orqanları arasında əməkdaşlığın inkişafına təkan verəcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə regionun lider dövləti olan ölkəmizin qısa zamanda əldə etdiyi uğurlardan, keçdiyi böyük inkişaf yolundan, reallaşdırdığı iri beynəlxalq layihələrdən, Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsindən geniş bəhs edilib. Oqtay Əsədov ölkələrin qanunverici orqanları arasındakı əməkdaşlığı da yüksək qiymətləndirib.

Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Hüquqi İslahatlar üzrə Komissiya sədrinin birinci müavini, Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü xanım Le Thi Thu Ba da ölkələrimzin tarixi əlaqələrindən danışaraq bildirib ki, Vyetnam hökuməti Azərbaycanın məhkəmə-hüquq sahəsində həyata keçirdiyi uğurlu islahatlardan xəbərdardır. Bildirib ki, Azərbaycanın bu sahədəki təcrübəsi Vyetnam üçün də maraqlıdır.

Qonaq Bakıda keçirdikləri görüşlər zamanı bu istiqamətdə faydalı müzakirələr apardıqlarını və Azərbaycanın təcrübəsi ilə daha yaxından tanış olduqlarını da qeyd edib.

***Elgün MƏNSİMOV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***